# Sözə həyat verən sözlə ucalar



*İlham QAZAXLI*

## QƏHRƏMAN TÜRK ƏSGƏRİ

Tarixlərdən gəlir səsin,
Alov saçır od nəfəsin.
Titrədirsən Yer kürəsin,
Ey, qəhrəman türk əsgəri!

Al bayraqdan güc alırsan,
Hünərinlə ucalırsan,
Xainlərdən öc alırsan,
Ey, qəhrəman türk əsgəri!

Cəsarətin şərəfindir,
Haqqın yolu səfərindir,
Çanaqqala zəfərindir,
Ey, qəhrəman türk əsgəri!

Atilla, Mete, Oğuz xan,
Fəxrindir böyük Çingiz xan.
Atatürkdür ölməz dühan,
Ey, qəhrəman türk əsgəri!

Doğulmusan mərd anadan,
Vuruşursan yorulmadan.
Köməyin olsun Yaradan,
Ey, qəhrəman türk əsgəri!

Birləşəcək böyük Turan,
Açılacaq yeni dövran.
Səninlədir uğur hər an,
Ey, qəhrəman türk əsgəri!

19.01.2016

## DAHİ SABİRƏ İTHAF

Qələmin od ələdi nadanların başına,
Dedin bəlkə, cahillər əməlindən daşına,
Kimsə məhəl qoymadı sənin bu təlaşına,
Nə demişdin - hamısı təsdiqin tapdı bir-bir,
Rəhmət sənə, min rəhmət,
ey müdrik, dahi - Sabir!

Müftəxoru, əyyaşı satiranla daşladın,
Qələmini rüşvətxor mollalara tuşladın,
Ömrün gözəl çağında - baharında qışladın,
Hər vuranda tək gəldi, yıxdı bizi «tək səbir»,
Rəhmət sənə, min rəhmət,
ey müdrik, dahi - Sabir!

Qamçıladın durmadan əməli mundarları,
Haqqa dəvət eylədin acgöz mənsəbdarları,
Rüsvayi-cahan etdin hoqqabaz dindarları,
Mövhumatı yıxmağa görmədi xalq bir tədbir,
Rəhmət sənə, min rəhmət,
ey müdrik, dahi - Sabir!

Haqq səsini car etdin, duymadılar səsini,
Sındırmağa çalışdın cəhalət «qəfəsini»,
Satiraya gətirdin öz yeni nəfəsini,
Qorxutmadı gözünü nə edam, nə də Sibir,
Rəhmət sənə, min rəhmət,
ey müdrik, dahi - Sabir!

«Pendir istədi tülkü qarğadan» - quyruq qısır,
«Oxutmuram, əl çəkin» - söylədi avam kasıb,
«Millət tarac» olsa da, əsrlər boyu susub,
Susmağıyla bu millət qazmaqda haqqa qəbir,
Rəhmət sənə, min rəhmət,
ey müdrik, dahi - Sabir!

Bu yuxulu millətə qalib gəldi istibdad,
Biganəlik törətdi sonda gör necə fəsad,
Qazaxlı rəhmət dilər sənə, ey böyük ustad,
Bu müti cəmiyyətə tənqidlər kar eləmir,
Rəhmət sənə, min rəhmət,
ey müdrik, dahi - Sabir!

## ŞAİRLƏR

Şeir ilə bəzəyib könül mülkünü,
Xəyal dənizində üzər şairlər.
Qəlbinin hissini, zehnin hökmünü,
Yazar misralara, düzər şairlər.

Sözə həyat verər, sözlə ucalar,
Haqqa sığınaraq haqqdan güc alar.
Saçına dən düşər, vaxtsız qocalar,
Hər yaşda məhəbbət gəzər şairlər.

Qələmi dost bilər, təbini həmdəm,
İlham çeşməsində durular hər dəm.
Başında min fikir, əlində qələm,
Duyğu qanadında süzər şairlər.

Vurar ağır illər ömrünə qamçı,
Süzülər varağa söz damcı-damcı.
Şeir olar dövləti, varı, qazancı,
Haqsızlıq görəndə küsər şairlər.

Bəsləyər qəlbində min arzu-istək,
Qayğısı yüz olar, sevinci tək-tək.
Əyilməz, qürurlu, məğrur qala tək,
Hər zülmə, əzaba dözər şairlər.

Vətənin şad günü, dar gününü də,
Zamanın dolaşıq düyününü də,
Qu kimi özünün ölümünü də,
Öncədən hiss edər, sezər şairlər.

Qazaxlı, şairlik bir sirdir özü,
Yolu haqq yoludur, hikmətdir sözü.
Bəşərə vurğundur ürəyi, gözü,
Dünyanı söz ilə bəzər şairlər...

## MƏNİ BU HƏYATA SEVGİ BAĞLADI

Göz açıb dünyaya gəldiyim gündən,
Bir gözüm gülsə də, biri ağladı.
Nə qədər əzablar çəksəm də belə,
Məni bu həyata sevgi bağladı.

Bəslədim qəlbimdə xoş arzu, niyyət,
Yad oldu könlümə həsəd, kin, nifrət.
Ruhumu oxşadı ülvi məhəbbət,
Məni bu həyata sevgi bağladı.

Şeyda bülbül oldum sevda bağında,
Cəh-cəh vurdum qonub gül budağında.
Vüsala yetişdim bahar çağında,
Məni bu həyata sevgi bağladı.

Güclü iradəmlə aşdım sədləri,
Qoymadım yaxına acı dərdləri,
Özümə dost bildim yalnız mərdləri,
Məni bu həyata sevgi bağladı.

Yolumu azmadım, əhdə düz oldum,
Nə özümdən razı, nə aciz oldum.
Könüllərdə nəğmə, dildə söz oldum,
Məni bu həyata sevgi bağladı.

İlhamam, borcluyam qələmə, sözə,
Sevgidə görmüşəm neçə möcüzə.
A dostlar, açıram sirrimi sizə,
Məni bu həyata sevgi bağladı.

## SALAM OLSUN

Uzaq durub dərdi-sərdən,
Gülənlərə salam olsun.
Sevincini dostlarla tən
Bölənlərə salam olsun!

Gəlib çatıb çətin dövran,
Sınaqdadır insan hər an.
Məhəbbəti dərdə dərman,
Bilənlərə salam olsun!

İnsan ömrü bənzər çaya,
Yön almaz eyni məcraya,
Saf diləklə bu dünyaya,
Gələnlərə salam olsun!

Ürəyində yurd həsrəti,
Qəriblik olan - qisməti.
Göz yaşlarını xəlvəti
Silənlərə salam olsun!

Qazaxlı, yaşanan yazı,
Yazılana yoxdu pozu,
Qəlbində xoş niyyət, arzu,
Olanlara salam olsun!

## VƏTƏN EŞQİ

Həkk elədim yaddaşıma,
Ən fərəhli günlərimi.
Sildim ömrə kölgə salan,
Uğursuz, nəhs illərimi.

Qorxutmadı könlümü qəm,
Həyat eşqim olmadı kəm.
Məhəbbətlə yazdı qələm,
Uğur sıxdı əllərimi.

Qane oldum çoxa-aza,
Könül verdim sözə-saza.
Əldə qələm yaza-yaza,
Bəyaz gördüm tellərimi.

Vətən eşqi ömrümə tən,
Şair etdi məni Vətən.
Hörmət bəslədi hər ötən
Sevdim mən də ellərimi!

31.12.2017

## ŞEİRİM

Zehnimdə yoğruldu, canımdan gəldi,
Ruhumdan süzüldü, qanımdan gəldi.
Nəşəli, kədərli anımdan gəldi,
Hikmətdən yarandı şeirim mənim.

Tanrı öz lütfünü eyləmədi kəm,
Aydın düşüncələr başda oldu cəm.
Duyğumu şeirə çevirdi qələm,
Qüdrətdən yarandı şeirim mənim.

Etdiyim savablar tutdu qolumdan,
İmdad gözləmədim sağım-solumdan.
Geri çəkilmədim öz haqq yolumdan,
Cürətdən yarandı şeirim mənim.

Əymədim şux qəddi yada, zalıma,
Qoymadım namərdlər gülə halıma,
Güvəndim ağlıma, öz kamalıma,
Fitrətdən yarandı şeirim mənim.

Bağlandım sevgiylə dosta-yoldaşa,
Arxa-dayaq oldum bacı-qardaşa.
Məhəbbət bəslədim yara-sirdaşa,
Ülfətdən yarandı şeirim mənim.

Qorxmadı daşqından, tufandan, seldən,
Düşmədi ağızdan, dodaqdan, dildən.
Aldı qiymətini vətəndən, eldən,
Hörmətdən yarandı şeirim mənim.

09.04.2018.

## TANIDIM

*Qüdrət Mintacoğluna*

Şad oldum Tanrının bu xoş lütfünə,
Dəyərli vətəndaş, şair tanıdım.
Neçə tədbirlərdə olduq bərabər,
Səmimi bir yoldaş, şair tanıdım.

Şeirində dillənir könül nəğməsi,
Hikmətdən yoğrulub sözü, kəlməsi,
Varlığı insanlıq mücəssəməsi,
Vəfalı bir sirdaş, şair tanıdım.

Şahdağ ucalığı əzəmətində,
Mərdlik, dürüstlüyü sədaqətində.
Tələbkar, əzmkar öz sənətində,
Mübariz «silahdaş» , şair tanıdım.

Gənclərə sənəti-sözü sevdirən,
Şeirlə xalqına töhfələr verən.
Yurdunu, elini könüldən sevən,
Qeyrətli bir yurddaş, şair tanıdım.

Zəhmətlə ucalan, halal zəhmətli,
Vətəninə vurğun, dosta diqqətli,
Qazaxlı, sənətdə-sözdə qüdrətli,
Ziyalı bir qardaş, şair tanıdım.

20.12.2017.

## GET-GEDƏ MƏHV OLUR MİLLİ DƏYƏRLƏR

Gözümüz önündə yadlaşır adət,
«Yabançı» adətə «milli» deyirlər.
Yurda ayaq açır yad mədəniyyət,
Get-gedə məhv olur milli dəyərlər.

Milli ənənəmiz - ən böyük sərvət,
Mənəvi dəyərlər - əvəzsiz nemət,
Unutqan olmuşuq o üzdən, əlbət,
Get-gedə məhv olur milli dəyərlər.

Milli muğamımız, milli sazımız,
Dünyada məşhurdun milli cazımız.
Biganə, laqeyid olduq özümüz,
Get-gedə məhv olur milli dəyərlər.

Nə vəkil narahat, nə alim, həkim,
Hamı əmr qulu, qulluğa təhkim,
Həyəcan təbili çalmayır heç kim,
Get-gedə məhv olur milli dəyərlər.

Efirlər əxlaqa zərbə vururlar,
Yersiz şoularla başı yorurlar,
Balanı-ataya qarşı qoyurlar,
Get-gedə məhv olur milli dəyərlər.

Əcdadlar demədi - Avropalaşaq,
Öz soy-kökümüzdən biz uzaqlaşaq.
Neyçün yad dillərdə yazaq, danışaq,
Get-gedə məhv olur milli dəyərlər.

Təhsil, mədəniyyət, tərbiyə bərbad,
Qondarma qanunlar milliliyə yad,
Gənc nəsil yöyüyür cahil, bisavad,
Get-gedə məhv olur milli dəyərlər.

Ataya-anaya azalır diqqət,
Qoyulmur böyüyə-kiçiyə hörmət,
Kənar təsirlərə uyur cəmiyyət,
Get-gedə məhv olur milli dəyərlər.

Lazım deyil bizə özgə «sərvətlər»,
Qoy bizdən götürsün ədəb, millətlər,
Qazaxlı, «aşınır» milli adətlər,
Get-gedə məhv olur milli dəyərlər.

***14.02.2018.***



## YAŞA DÜNYADA

Ömür yollarımız sərtdən də sərtdir,
Həyat kiminə kef, kiminə dərddir.
İnsan yaxşılıqla həyatda mərddir,
Çalış xoş əməllə yaşa dünyada.

Çarəsiz görəndə əzizlə, ovut,
Kədərli gözlərin nəmini qurut.
Fağıra, yetimə, qocaya əl tut,
Çalış xoş əməllə yaşa dünyada.

Baxma insanlara üstdən aşağı,
Qoyma sönə inam, ümid çırağı,
Ol, iman əsgəri, ol haqq aşığı,
Çalış xoş əməllə yaşa dünyada.

Xoş sədan, sorağın gəlsin elindən,
Bir kimsə görməsin zərər dilindən,
Hamı razı qalsın qoy əməlindən,
Çalış xoş əməllə yaşa dünyada.

Yıxılan görəndə etmə tamaşa,
Sənin də ayağın dəyər, bil, daşa.
İstər əlli yaşa, istər yüz yaşa,
Çalış xoş əməllə yaşa dünyada.

Qazaxlı sözünü etdi müxtəsər,
İnsanlıq duyğusu ən böyük əsər,
Mərhəmətsiz insan ömründən kəsər,
Çalış xoş əməllə yaşa dünyada.

22.06.2016

## BU DÜNYANIN

Qorxuludur coşan seli,
Amansızdır əsən yeli.
Çox qəlizdir, hökmü, dili,
Bu dünyanın, bu dünyanın.

Fəsil-fəsil ömrü sağır,
Çox belləri edib yağır,
Cəfası var dağdan ağır,
Bu dünyanın, bu dünyanın.

Həsiri-Məmmədnəsiri,
Azı-çoxu, kəm-kəsiri,
Hər gələn... əsir-yesiri,
Bu dünyanın, bu dünyanın.

Açan yoxdu sirlərini,
Gəzən çoxdu pirlərini,
Şər fırladır «pərlərini»,
Bu dünyanın, bu dünyanın.

Adəmdən ta üzü bəri,
Cüt yarandı xeyri-şəri,
Oddur, alovdur məhşəri,
Bu dünyanın, bu dünyanın.

Fəndlərini qanammadıq,
Vəfasına inanmadıq,
Cəfasını danammadıq,
Bu dünyanın, bu dünyanın.

Qurdu fələk qum saatı,
Zəhərlədi dərd həyatı,
Yalan imiş, toy-büsatı,
Bu dünyanın, bu dünyanın.

Qazaxlı, aç, tök içini,
Az dağla, az sök içini,
Kimsə durdurmaz köçünü,
Bu dünyanın, bu dünyanın.

## SEVGİMİZ

Ətirli çiçək tək təzədir, tərdir,
Nəşəsi, sevinci dünya qədərdir.
Sevgisiz yaşanan ömür hədərdir,
Vüsala açılan qoldu sevgimiz!

Çağlayan şəlalə, coşan dənizdir,
Özülü möhkəmdir, ruhu təmizdir.
Bizi səadətə aparan izdir,
Könül qovuşduran yoldu sevgimiz!

Dəryadır, ümmandır, arzudur, kamdır,
Sevən könlümüzü isidən şamdır;
Dodaqda şirinlik, ağızda tamdır,
Şəkərdi, noğuldu, baldı sevgimiz!

Ruha dinclik verən xəfif yuxudur,
Sinəyə çəkilən lətif qoxudur,
Ən əziz istəkdir, ən saf duyğudur,
Fərəhli anlarla boldu sevgimiz!

Həyatı duymağa həvəs, maraqdır,
Yenicə göyərən yaşıl yarpaqdır,
Bəzən körpə kimi dəcəl, şıltaqdır,
Hərdən də susqundu, laldı sevgimiz!

Tufana, borana, selə güc gərən,
Göylərdən səadət, sevinc endirən.
Bədəndə atəşi, odu söndürən,
Bənzərsiz duyğudu, haldı sevgimiz!

Bəxş edən ən gözəl anı, saatı,
Bəzəyib, oxşayan ömrü, həyatı,
Qazaxlı, bəlkə də şeir, bayatı, -
Dildə dastan olub, qaldı sevgimiz!?

*08.10.2016.*

## VƏTƏN

Qucağında göz açdığım,
Məskənim, yurdumdu, Vətən.
Gözlərimdə həyat eşqi,
Sinəmdə odumdu Vətən.

Saf eşqim, saf məhəbbətim,
Ülviyyətim, səadətim,
Məfkurəm, ülvi niyyətim,
Müqəddəs andımdı Vətən.

Damarımda axan qanım,
Təmiz məslək, pak vicdanım,
Hissim, duyğum, ruhum, canım,
Qolum-qanadımdı Vətən.

Heysiyyətim, ləyaqətim,
Ucalığım, şan-şöhrətim,
Şərəfim, arım, qeyrətim,
Qürurum, andımdı Vətən.

Keçmişimdir, bu günümdür,
Şadlığım, toy-düyünümdür,
Səsim, harayım, ünümdür,
Nalə, fəryadımdı Vətən.

Məqsəd, arzu, diləyimdir,
Vuran nəbzim, ürəyimdir,
Ruzim - düzüm çörəyimdi
Ləzzətim dadımdı Vətən.

Odum, közüm, atəşimdir,
Əbədiyyət günəşimdir,
Zirvəyə yüksəlişimdir
Kamım, muradımdı Vətən.

## EY NADAN, ÖZÜNÜ SALMA DİLLƏRƏ

**Yanuş Korçaq.**

**Səməd Vurğun.**

Ey nadan, özünü salma dillərə,
Səsinə güc verib, qalxma zillərə.
Bir fikir deyərkən düşün, sonra de,
İkrahla söyləmə "şeir nədir ee"...

Vaqif olmadan çox gizli sirlərə,
İftira yağdırma gəl, şairlərə.
Çürük qoz kimidir idrakın, ağlın,
Böhtandır, yalandır söhbətin, nağlın.

Xiridar deyilsən, hardan biləsən,
Şeirə, qəzələ qiymət verəsən!
İnsanın üzündə gərək ar ola,
Böhtançı gərəkdir eldə xar ola.

Dinlə, sözlərimə yaxşı qulaq as,
Şairi hədyanla qorxutmaq olmaz!
Şairdir sevdirən bəşərə sözü
Əzablarla keçən gecə-gündüzü.

Sənət bir ümmandır, şairsə qəvvas,
Gözəl söz gövhərdir, müdrik söz almaz.
Şairə qiyməti verməsə bəşər,
Sənət gözdən düşər, söz adiləşər.

Sözü qələmiylə ucaldır şair,
Dərdli könüllərə dəvadır şeir.
İdraka dağlıdır şair duyğusu,
Ən rəzil adamdır şeir oğrusu.

Aqillər dərk edər sözdə hikməti,
Qılıncdan ötkəmdir sözün qüdrəti.
Dərdi köynək kimi geyər əyninə,
Elin qəm yükünü yığar çiyninə.

Şairdir, ayıran ağı-qaradan,
Şairdir xalq üçün yazıb-yaradan.
Dinlə, şairlərdən söz açım bir az,
Hər qələm tutandan bil, şair olmaz!

Nizami, Füzuli sözə qurdu taxt,
Dəyərdən düşmədi uca söz heç vaxt,
Susdura bilmədi şairi kimsə.
Əldən-ələ gəzdi "Şahnamə", "Xəmsə".

Xaqani dayandı uca zirvədə,
Sözləri bərq vurur ləltək hələ də.
Xətai "Divan"ı yazdı-yaratdı
Öz şahlıq taxtında sözü ucaltdı.

Nəimini saldı söz təhlükəyə,
Bədəni bölündü neçə tikəyə.

Nəsimi titrətdi qərinələri,
Heyrətlə dinləndi qəsidələri.

Vaqif gözəllərə yazdı qəzəllər,
Ruhunu oxşadı türfə gözəllər.
Vurğun el-obadan aldı ilhamı,
Xalqın məhəbbəti oldu ənamı.

Sabir millət üçün çəkdi əndişə,
Cahil cəmiyyəti tutdu atəşə,
Cavidi etdilər Sibirə sürgün,
Müşfiq güllələndi hökm oxunan gün.

Sözü uca tutdu Rəsul, Bəxtiyar,
Vətən deyə-deyə öldü Şəhriyar.
Xəlil sözlərini söylədi ötkəm,
Təbrizim şayqırdı Söhrabla Rüstəm.

Qabil Nəsimidən poema yazdı,
Bəxtiyar sənətdə şöhrət qazandı.
Gözlərdə yaş oldu el bölən Araz,
Narahat ömür sürdü Məmməd Araz.

Nəriman, Hüseyn, Mirvarid, Osman,
Şeirlə qazandı bu şəxslər ad-san.
Cabirin, Nəbinin sənəti bəlli,
Böyük dühalardır xalqa təsəlli.

Hələ bu sırada neçə şair var,
Onlardır xalqına qürur, iftixar.
Yazdım bu şeirimi bir ibrət olsun,
Böhtan deyənlərə qoy, töhmət olsun!

## MƏN MƏHƏBBƏT ŞAİRİYƏM

İlhamlanıb şeir yazan,
Həm şairəm, həm də ozan.
Bir bulağam eşqə sızan,
Mən məhəbbət şairiyəm.

Nəğməm dinir pərdə-pərdə,
Şeirim məlhəm hər bir dərdə.
Yaşayıram könüllərdə,
Mən ülviyyət şairiyəm.

Tanrı verib ilhamımı,
Qoruyuram inamımı,
Dostlar bilir məramımı,
Mən həqiqət şairiyəm.

İdrakımdan süzülür söz,
Yazıram hey gecə-gündüz,
Ədiqəm saf, amalım düz,
Mən xoş niyyət şairiyəm.

Tükənməzdir dəyanətim,
Poladdandır mətanətim,
Sönməz odum-hərarətim,
Mən hürriyyət şairiyəm.

Qazaxlıyam, Vətən canım,
Odur ruhum, pak vicdanım,
İlqarımı necə danım
Mən sədaqət şairiyəm.

13.04.2017

## YAŞASIN QARDAŞLIQ, YAŞASIN İNAM

İtməsin qəlblərdən ədalət, insaf,
Əməllər düz olsun, niyyətlərsə saf.
Olmasın həyatda əlacsız xəstə,
Qalmasın bir canlı dəmir qəfəsdə.
Qəlbləri oxşasın sevgi, məhəbbət,
Döysün qapıları şənlik, səadət,
Çəkilsin ümidin üstündən duman,
Günəş nur ələsin, var olsun güman!
Yaşasın qardaşlıq, yaşasın inam,
Könlüm bu ülfətdən qoy, alsın ilham!

18.09.2016.

## QARIŞIQ FİKİRLƏR

Yenə fikirlərim qarmaqarışıq,
Xəyalım xoş günün sorağındadır.
Qəm-kədər ömrümü qucan sarmaşıq,
İdrakım yaratmaq marağındadır...

Bilməzdim narahat keçər günlərim,
Möhnət qılıncını çəkər üstümə.
Bilməzdim, arzumu biçər illərim,
Qayğılar cəlladtək durar qəsdimə.

Bilməzdim iş-gücə başım qarışar,
Əlim ayrı düşər qələm, kağızdan.
Bilməzdim dövranla cismim çarpışar,
Zaman acımadan sıxar boğazdan.

Hər gün işdən yorğun dönürəm evə,
Günləri birtəhər vururam başa.
Zəmanə bənzəyir təpəgöz divə,
Girirəm dövranla hər gün savaşa.

Vaxt tapa bilmirəm şeir yazmağa,
Bir allah bilir ki, nələr çəkirəm.
Hünərim də çatmır dərdi yozmağa,
Yol boyu qəm səpib, kədər əkirəm...

Çırpınır quş kimi möhnətdən qəlbim,
Həyatdan bir nəşə, zövq alanmıram.
Yaxşı ki, əzaba dözəndi səbrim,
Dözürəm, sınmıram-parçalanmıram.

...Yorsa da qəlbimi qayğılar heyhat,
Sənətə bağlıdır ruhum, nəfəsim...
Nə qədər amansız olsa da həyat,
Tükənməz yaratmaq eşqim, həvəsim.

## YAXŞILIQDIR TƏK AMALIM

Şərdən, böhtandan uzağam,
Sevmirəm yersiz qeybəti,
Vicdanım da götürməyir,
Dedi-qodu, söz-söhbəti.

Səhvi olsa əgər kəsin,
Mən üzünə söyləyərəm.
Sədaqətli dost yolunda,
Canı qurban eyləyərəm.

Təkəbbürdən çox uzağam,
Yaxşılıqdır tək amalım.
Dost yanında üzü ağam,
Dövlətliyəm - var kamalım.

Dağ vüqarlı, etibarlı,
Ləyaqətli dostlarım var.
Ən vəfalı dostlarımın,
Sağlığına tostlarım var.

Qələm yazır, könül şaddır,
Hələ neçə şeirim dəmdə.
Kədər, möhnət qəlbə yaddır,
Çün dostlar var bu aləmdə.